Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
"İctimai və dövlət maraqları"

# Polad kimi adam

## Köhnə kişilərdən olan dəyərli və cəsarətli alim Abbas Zamanov haqqında xatirələr

**Bugünkü kimi yadımdadır. 1987-ci ilin dekabrın 28-də M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında hörmətli yazıçımız Elçin Əfəndiyevin rəhbərlik etdiyi "Vətən" Cəmiyyətinin təsis konfransı keçirilirdi. Konfransa müəllimim (o zaman BDU-nun Jurnalistika fakültəsinin IV kursunda oxuyurdum), professor Abbas Zamanov məni də aparmışdı.**

Abbas müəllim çıxış edərkən həmişəki kimi yenə də içindəki narahatlığı büruzə verərək bütün xalqı ayıq-sayıq olmağa çağırdı. Doğrudur, bu çıxışa ağız büzənlər də oldu, hətta yuxarılara xoş gəlmək üçün Mərkəzi Komitədən gələnlər arasında sözünü kəsənlər də tapıldı. Amma Abbas müəllim öz işində idi. Bilirdi ki, ölkənin vəziyyəti ağırdır, ona görə də heç nədən və heç kimdən çəkinmədən, şəstlə sözünü deyib əyləşdi.

Görünür, Mərkəzi Komitədən gələn nümayəndə bilmirdi ki, Abbas müəllim hələ kommunizmin qılıncının dalının da, qabağının da kəsən vaxtlarında həqiqəti söyləyən bir ziyalıdır.

Bu haqda mənə BDU-nun professoru Şamil Qurbanov danışmışdı. Şamil müəllim danışırdı ki: "1960-cı illər idi. BDU-da axırıncı kursda oxuyurdum. Səməd Vurğunun yaradıcılığı ilə bağlı təntənəli bir mərasim keçirilirdi. Mərasimdə Moskvadan, Mərkəzi Komitədən gələn məsul şəxslər də iştirak edirdi. Mərasimə sədrliyi ədəbiyyatşünas alim Məmməd Arif edirdi.

Həmişəki kimi, əvvəlcədən hazırlanmış, "qəlibə" salınmış ssenari üzrə məclis əl çalmalar və təriflərlə davam edirdi. Bu "qəlib"lənmiş ssenarini pozan Abbas müəllimin gözlənilməz çıxışı olur. Səməd Vurğunun yaradıcılığı haqqında məzmunlu danışan Abbas müəllim nitqini toplantı iştirakçıları üçün gözlənilməz və qeyri-adi bir cümlə ilə yekunlaşdırdı: "Bu gün bir məsul şəxs mənə dedi ki, mərkəzdə Naxçıvanın ermənilərə verilməsi məsələsi həll edilir. Əgər bu gün Səməd sağ olsaydı, deyərdi ki, biz Naxçıvanı ermənilərə verməyək!"

Zalda hökm sürən sükutu gurultulu alqışlar əvəz etdi. Bu hadisədən çaşqın qalan Məmməd Arif (yəqin ki, o zaman o, Abbas müəllimə söz verdiyi üçün ürəyində özünü min dəfə ittiham edib) Abbas müəllimin hissə qapıldığını deyərək zalda sakitlik yaratmağa çalışarkən Abbas müəllim yenidən icazəsiz kürsüyə qalxaraq daha açıq və sərt çıxış etdi".

Tezliklə bu çıxışın sədası mərkəzdə böyük əks- səda doğurur. Abbas müəllimi üzv olduğu Kommunist Partiyası sıralarından və işlədiyi BDU-dan çıxarırlar.

Sovetlər zamanında yaşayanlar partiyadan xaric edilməyin nə olduğunu çox gözəl bilirlər. Deməli, Abbas müəllim üçün həyat qurtardı. İşini, partiya qarşısında nüfuzunu, bir sözlə, hər şeyini itirir Abbas müəllim. Professor Şamil Qurbanov demiş, "bircə əyilməzliyini, yenilməzliyini, şərəfini, insanlıq ləyaqətini itirmir".

"Dostlar"ın qeybə çəkildiyi, işsiz-gücsüz bir zamanda yenə Abbas müəllim yazı-pozusundan ayrılmadı. Maddi çətinliklərin içində boğulduğu illərdə mənəvi rahatlığını "Azərbaycan poeziyasının qocaman dağı" olan Mirzə Ələkbər Sabirin tədqiqində tapdı və illər sonra "nəinki Azərbaycanda, demək olar ki, bütün mədəni dünyada görkəmli sabirşünas alim kimi tanındı".

Hətta tədqiqatçıların söylədiyinə görə, "Abbas Zamanov filologiya sahəsində yeganə elm adamıdır ki, "Sabir və müasirləri" adlı əsərinə görə namizədlik dissertasiyası müdafiə etmədən birbaşa elmlər doktoru alimlik dərəcəsinə layiq görülmüşdü".

* * *

Abbas müəllim "böyük Alim, böyük İnsan olmaqdan əlavə böyük Vətəndaş idi". Vətəndaşlıq, vətənpərvərlik, millətsevərlik onun üçün hər şeydən əziz idi. Alimlikdən də, İnsanlıqdan da. Ona görə də sabahını düşünmədən-daşınmadan belə hərəkət etdi.

Bütün bunlardan sonra Abbas müəllimi daha yaxından tanımaq istədim. Sənədlər və zaman mənə onu tanıtdı. Sənədlərdən belə bəlli olur ki, 1911-ci ilin soyuq, yağışlı bir payız axşamı Naxçıvanın Şərur mahalının Maxta kəndində Mirfəttah (amma əksər ədəbiyyatlarda atasının adı Mirfəttah yox, sadəcə, Fəttah yazılıb. Məsələn, bax; Cəlil Məmmədquluzadə Ensiklopediyası. Şərq-Qərb.Bakı. 2008. S.297.) kişinin ailəsində bir oğlan uşağı dünyaya gəlir. Adını da Mirabbas qoyurlar. Mirabbas da yaşıdları kimi əvvəl molla məktəbinə gedir. Ərəb, fars dillərini, Quranı oxumağı öyrənib keçir Baş Noraşendəki yeni üsullu məktəbə (Bir zaman dahi Mirzə Cəlilin dərs dediyi məktəbə-müəl.).



Mirabbasın Bakıya ilk gəlişi uşaq evindən başlayır. Bir müddət Bakıda uşaq evində yaşayan Mirabbas fərasəti, hafizəsi, təhsilə güclü marağı ilə burada çalışan Səkinə müəllimənin diqqətini cəlb edir (Səkinə müəllimə Hüseyn Cavidin bacısı olub). Uşaq evinə Mirabbas Mirfəttah oğlu Şeyxzamanov kimi qəbul edilən Mirabbas Səkinə xanımın tövsiyəsi və köməkliyi ilə olur Zamanov Abbas Fəttah oğlu.

"Mirlər" və "şeyxləri" xoşlamayan sovetlərin qurbanı olmamaq üçün Səkinə xanım onun adını, soyadını dəyişməyə müvəffəq olur (İllər sonra Abbas müəllim başa düşür ki, Səkinə xanım bu yolla onu böyük bir faciədən qurtarıb). Amma adı dəyişilsə də, içindəki vətənpərvərliyi, millətçiliyi dəyişməz qalır. Əksinə, bu ixtisarlar onun qəlbinə silinməz bir yara çəkərək onu polad kimi bərkidir. İllər keçir, "Zamanov Abbas Fəttah oğlu sözünün sahibi olan "köhnə kişilərdəndir" adı ilə tanınır.

Əslində Abbas müəllim sonralar filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi, Azərbaycan MEA-nın müxbir üzvü kimi daha böyük fəxri adlara sahib olsa da, çox kişinin sahib ola bilmədiyi "köhnə kişi" adını ən ağır anında belə qoruyub saxlaya və doğrulda bilir. Odur ki, bu gün Abbas Zamanovu oxucuma tənqidçi, ədəbiyyatşünas, mətnşünas, mətbuatşünas, tərcüməçi, pedaqoq kimi yox, əsil vətəndaş, vətənpərvər, millətsevər bir Abbas Zamanov kimi təqdim etmək istərdim. Çünki onun alimliyi, pedaqoji fəaliyyəti haqqında akademik Bəkir Nəbiyevdən tutmuş Əməkdar jurnalist Flora Xəlilzadəyə kimi görkəmli qələm sahibləri söz deyib. Belə söz sahiblərinin yanında mənim Abbas müəllimin alimliyindən bəhs etməyimə lüzum yoxdur.

* * *

Abbas müəllimi ilk dəfə 1985-ci ildə BDU-da keçirilən namizədlik dissertasiyasının müdafiəsində gördüm (Sonralar bildim ki, artıq bu zaman Abbas müəllimin həyatında və işində hər şeyin öz axarına düşdüyü illərdir. O, uzun illərin çək-çevirindən sonra hətta yenidən Kommunist Partiyası sıralarına bərpa edilmiş (sözsüz ki, Abbas müəllim bir daha bu partiyaya sevgisindən yox, özünü sübut etməsindən qayıdıb) və on bir il əvvəl çıxarıldığı (Şamil Orbanov çıxarıldığı sözünü "az qala "xalq düşməni" kimi qovulduğu" deyirdi) BDU-nun Azərbaycan ədəbiyyatı kafedrasının müdiri seçilmişdi. Atdan düşüb atlanmaq budur ha). Hətta Moskvadan qayıdandan sonra o, Nizami adına Ədəbiyyat Muzeyinin direktoru vəzifəsinə təyin edilir. Bununla ətrafındakılara bir daha sübut edir ki, Abbas Zamanov doğrudan da polad kimi adamdır və "sözünün sahibi olan bu "köhnə kişi" ilə "zarafat" etmək odla oynamaq kimi bir şeydir. Həmin illər mən BDU-nun Jurnalistika fakültəsində oxuyurdum. Kasıb, kimsəsiz (amma çox istedadlı və bacarıqlı) bir həmyerlim, gənc aspirant Hüseyn Cavid yaradıcılığı haqqında filologiya ellmləri namizədi adı almaq üçün müdafiə edirdi, elmi rəhbəri də Abbas müəllim idi. Bəstəboy, dolu bədənli, gur səsli, iti baxışlı bu alim müdafiə boyu təkcə bir rəhbər kimi yox, xeyirxah, xoşniyyət bir insan kimi də yaddaşımda qaldı.

Bir-iki il sonra Abbas müəllim bizim kursa "XX əsr Azərbaycan ədəbiyyatı"ndan dərs deməli oldu. Qəribədir, Abbas müəllim bizə ədəbiyyatdan çox mətbuatımızın tarixindən, onu yaradan klassiklərimizdən danışardı. Mətbuatımızla bağlı bir çox gizli mətləbləri, qaranlıqları bizim üçün Abbas müəllim işıqlandırardı.

Tələbə biletimizi Fəxri Xiyabanda məzarının üstündə aldığımız Həsən bəy Zərdabinin orada yenidən dəfn edilməsinin səbəbkarı da Abbas müəllim olubmuş (Bu haqda "Mətbuat - nicat yolu" kitabımda ətraflı məlumat vermişəm. (Bakı. AD-PU-nəşr. 2013).

Ötən yüzilin görkəmli publisisti, jurnalisti Eynəli bəy Sultanov, görkəmli pedaqoq Qurbanəli Şərifzadə, ədəbiyyatşünas alim Əziz Şərif haqqında ilk dəfə Abbas müəllimdən eşitdik. Və professor Şamil Qurbanovun dediyinə görə, istiqlalımızın bayraqdarı olan M.Ə.Rəsulzadənin məzarı üstə ilk dəfə vətən torpağını aparıb tökən də Abbas müəllim olub.

* * *

Bir ədəbiyyatşünas alimin mətbuata qarşı bu qədər sevgisi, saygısı haradan qaynaqlanırdı? Sən demə, Abbas müəllim ilk əmək fəaliyyətinə "Gənc işçi" qəzetindən başlayıb. Daha sonra isə "Ədəbiyyat qəzeti"nin məsul katibi işləyib. Dövri mətbuatda çıxış edən Abbas müəllim Böyük Vətən Müharibəsi illərində Azərbaycan Teleqraf Agentliyinin ictimai əsaslarla hərbi müxbiri olub. Cəbhə ilə bağlı yazıları o dövrün ən nüfuzlu qəzetlərindən olan "Kommunist", "Vışka" və "Bakinskiy raboçiy"də çap edilib. O, odun-alovun içində, güllə-mərmi yağışının altında nə qədər reportajlar, oçerklər hazırlayıbmış.

Deməli, həm qələmi, həm də silahı ilə döyüşən Abbas müəlim ədəbiyyata, ədəbi mühitə mətbuatdan gəlib. H.Zərdabi, Ü.Hacıbəyli, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ö.F.Nemanzadə, S.M.Qənizadə, Ə.Haqverdiyev, E.Sultanov və daha onlarla jurnalistin, publisistin yaradıcılığına Abbas müəllim qaygı ilə yanaşdı, tədqiqatlarına onlar haqqında ilk dəfə yeni materiallar əlavə etdi. "Molla Nəsrəddin" jurnalı haqqında mükəmməl tədqiqat əsəri ortalığa qoydu.

Abbas müəllim haqqında yazmaq fikrində olduğumu qəzetimizin təsisçisi, tədqiqatçı alim, şairə-publisist Sona xanım Vəliyevaya bildirdim. "Abbas müəllim təkcə Azərbaycan Elmlər Akademiyasının deyil, dünyanın bir sıra nüfuzlu elm mərkəzlərinin, universitetlərinin fəxri üzvü, doktoru seçilmişdir. Onun haqqında nəinki bir məqalə, hətta bir buraxılış belə azdır",- deyə qürurla vurğuladı.

Yazımı sona çatdıranda Abbas müəllimin doğum və ölüm tarixinə nəzər yetirdim: 1911-1993. Azərbaycan Xalq Cümhuriyyəti süquta uğrayanda onun cəmi on yaşı olub. Yenidən Azərbaycan öz müstəqilliyinə qovuşanda isə ömrünün ahıl çağını yaşayıb. Deməli, Abbas müəllim uşaqlığında millətinin itirdiyi o xoşbəxtliyi ahıllığında yenidən gördü. Bu özü də bir xoşbəxtlikdir -millət, Vətən yolunda yaşayıb-yaradanlar üçün!



**Qərənfil Dünyamin qızı**
**Əməkdar jurnalist**

*Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.*